Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

№ 88 (1456) 12 may - 13 may 2017-ci il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# Aşıq Abbas

(əvvəli ötən sayımızda)

**Bir gün kəndə molla gəlir. Aşığın arvadı mollanı evə çağırtdırır ki, atasına yasin surəsi oxutsun. Aşıq Abbas gəlib görür ki, evdə qonaq var. O dəqiqə mollanın fırıldaqçı olduğunu anlayır və arvadına deyir:**

- Arvad, atanın goru haqqı, bunun da başı mənimki kimi heç nədən çıxmır. Nəzirini ver getsin. Axşam atana nə qədər istəsən quran oxuyaram.

***

Aşıq Abbasın hazırcavablığı çoxuna xoş getmirmiş. Abbası pərt etmək üçün fürsət axtarırmışlar. Bir gün Qırxqız dağlarının qoynundan, Suvad kəndinin yanından axan çay bir ayı leşini aparıb aranda uzaq bir kəndə sahilə çıxarır. Oradan Aşıq Abbasa məktub yazırlar ki, sel kəndinizdən bir meyit gətirib, adət-ənənənizi bilmədiyimiz üçün basdıra bilmədik. Adət-ənənənizi məktubda yazsaydınız dəfn edərdik. Aşıq Abbas belə cavab yazır: ”Öz ata-babalarınızı necə dəfin-kəfin etmisinizsə, onu da elə basdırın”.

***

Aşıq Abbas bir taciri aldadıb pul alır ki, sənə filan şeyi gətirəcəyəm. Tacir çox xəsis imiş. Tacir evin yolunu göstərir ki, buradan gəl, buradan get, belədən dön. Aşıq Abbas bir daha qayıtmayacığını nəzərdə tutaraq deyir:

- Arxayın ol, mənimki birdəfəlikdir. Bir dəfə gördüm, bəsimdir.

***

Bir dəfə Sultan bəyin xeyli qonağı gəlir. Yeyib-içməyin şirin məqamında söhbət yaxşıdan, pisdən düşür. Hərə bir əhvalat danışır. Sultan bəy isə birdən qayıdır ki:

- Kimsə mənə hər şeyin pisindən misal gətirsə ona xələt bağışlayacam. İşdi, birdən deyə bilməsə, şallaqla cəzalandıracağam ha...

Məclisə sükut çökür. Birdən Aşıq Abbas dillənir:

- Bəy sağ olsun, mən cavab verərəm - deyir.

Bəy yenə sualın məqamlarını təkrar edir. Aşığa deyir:



- Aşıq, sözümüz sözdü ha. Suala cavab verə bilməsən şallaq yeyərsən ha...

Aşıq yenə ürəkli-ürəkli deyir:

- Mən hazıram.
- Onda de görək sualın cavabını.

Uzun müddət Sultan bəyin yanında xidmət etdiyinə görə, çox müşahidələr apardığına görə Aşıq Abbas bilirdi ki, Sultan bəyin nələrdən xoşu gəlir, nələrdən isə xoşu gəlmirdi. Odur ki, qayıdır ki:

- Bəy sağ olsun, bazar günü bir tənbəl nökər-naib Yevlaxda eşşəyin belində ərik yeyirdi...

Sultan bəy fikirləşdi və birdən qayıtdı ki:

- Əhsən Aşıq Abbasa. O, mənim sualıma düzgün cavab verdiyinə görə o boz atı ona hədiyyə verirəm. Çünki mənim bazar günündən xoşum gəlmədiyi üçün bütün günü yatıram. Tənbəl nökər-naibi də görməyə gözüm yoxdur. Sən bir dəfə də işi yarıtmadığına görə yaxşı kötək yedin. Ona görə də tənbəldən xoşum gəlmir. Yevlaxda hər tərəf bataqlıq olduğu üçün ətrafdan pis iy gəlir, elə bil lax yumurta ətrafa dağılıbdır. Heyvanlardan da eşşəyin səsindən, meyvələrdən də ərikdən xoşum gəlmir. Bir dəfə isti havada nəfsimi saxlamadım ərik yedim, qarnım yaman ağrıdı. Ona görə də aşığa hədiyyə düşür.

***

Bir gün Aşıq Abbas qonşusunun qoyun sürüsündə olan bir qara qoyunu qonşusuna göstərib deyir:

- Qonşu, gəl, bu qara qoyunu kəs, kabab çəkək.

Qonşu razı olmur. Bir müddət keçir. Aşıq Abbas həmin qonşusuna bir gün deyir ki, gəl mənimlə qonşu kəndə oğurluğa gedək. Sən kənddən aralı bir yerdə gizlənərsən, mən də gedib bir-iki qoyun gətirərəm. Qonşu razılaşır. Onlar qaranlıq bir gecədə kənddən çıxırlar. Öz kəndlərindən bir az uzaqlaşanda Aşıq Abbas qonşusuna qonşu kəndi göstərib deyir:

- Mən dünən bu kənddə toyda olmuşam, birdən məni görüb tanıyan olar, gəl paltarlarımızı dəyişək.

O, qonşusu ilə paltarlarını dəyişir. Sonra da qonşusuna deyir ki, bax, burada dur, məni gözlə, heç bir yerə getmə.

Aşıq Abbas qaranlıqda gözdən itir. O, qayıdıb gəlir kəndə girib qonşusunun tövləsindən həmin gözlətdiyi qara qoyunu çıxarıb alıb çiyninə, gəlir vəd yerinə. Aşıq Abbas qonşusuna deyir ki, mən bir qoyun gətirmişəm. Gəl götür gedək evə. Onlar qoyunu götürüb qayıdırlar kəndə. Qonşusunun qapısına çatan kimi Aşıq Abbas qoyunun başını kəsir. Hazır olan cəmdəyi iki yerə bölür, birini verir qonşusuna, birini də özü götürüb gedir evinə. Aşıq Abbas gedəndən sonra əli çırağı işığında kəsilən qoyunun başını, dərisini yığışdıran qonşunun arvadı görür ki, bu kəsilən qoyun onların qara qoyununa lap çox oxşayır. Arvad ərini çağırır, əllərində çıraq gedirlər tövləyə, görürlər ki, qara qoyun yoxdu, kəsilən onların qoyunudu. Kişi mat-məəttəl qalır, deyir ki, arvad, bu qoyunu qonşu kənddən gətirdik. Kişi arvada tapşırır ki, bu iş lap biabırçılıq oldu, mən inanmıram. Bu barədə heç kimə heç nə demə.

Səhər açılır. Qoyun yiyəsi qonşularını görən kimi qonşular başlayırlar onu ələ salmağa.

- Ə, təbrik edirik. Deyirlə, axşam oğurluğa gedib, qonşu kənddən bir qara qoyun gətirib kəsmisiniz.

Ev yiyəsinə indi məlum olur ki, qoyun oğurluğu bir kələk imiş. Aşıq Abbas tezdən durub əhvalatı kənd camaatına danışıbmış.

***

Aşıq Abbasın Şuşa qalasında (Şuşada) bir tacir dostu varmış. Bu tacir hər yay fəslində aldığı pal-parçanı qatra yükləyib gətirərmiş Aşıq Abbasgilə. O, neçə həftə Aşıq Abbasın evində qalıb, gətirdiyi pal-parçanı o kənddə, yaylaqda və qonşu kəndlərdə çatarmış. Bəzi adamlara nisyə verdiyi parçanın haqqını isə Aşıq Abbasa tapşırarmış. Aşıq Abbas da tacir dostunun nisyə verdiyi malların pulunu yığıb, sonra verərmiş tacir dostuna.

Bir gün Aşıq Abbas Şuşaya gedir. O, tacir dostu ilə görüşür. Aşıq Abbas tacir



dostuna bildirir ki, bir-iki gün burada qalacaq, işi var. Bunu eşidən tacir dostu Aşıq Abbasa deyir ki, mənim vacib işim var, axşam evdə olmayacağam, başqa yerdə olacağam. Dostundan bu xəbəri eşidən Aşıq Abbas çox pis olur. O, fikirləşir ki, necə olur ki, tacir dostu onun evində həftələrlə qalır, o, dostuna lazım olan hörməti eləyir, onun mallarının satılmasına kömək edir, amma dostu onu bir gecə evində qonaq saxlaya bilmir. Bəhanə edir ki, guya evdə olmayacaq.

Aşıq Abbas dostundan ayrılır. O, axşam başqa bir tanışının evində qonaq qalır. Bir-iki gündən sonra qayıdır öz evinə.

Vaxt-vədə tamam olur, yenə yaz gəlir. Bir gün tacir parça yüklü bir qatırla gəlir Aşıq Abbasın evinə. Aşıq Abbas həmişəki kimi dostunu qarşılayır. Axşam olanda o, tacir dostuna deyir ki, qatırı tövləyə salmasın. Tövləyə bir ayı dadanıb, gəlib tövlədəki heyvanları yeyir. Özü də nə qədər çalışır, ayını vura bilmir.

Tacir Aşıq Abbasa deyir ki, mən bir neçə həftə hələ buradayam. Sən silahı ver mənə, pusquda durub onu öldürərəm. Aşıq Abbas dostu ilə ayını öldürmək üçün iki gecə keşik çəkirlər. Üçüncü gecə Aşıq Abbas dostu tacirin qatırını ondan xəbərsiz aparıb evdən bir az aralı həyətdə bağlayır. O, gəlir dostu tacirə deyir ki, neçə gecədi ayı gəlmir, mütləq bu gecə gələcək, ayıq olmaq lazımdır. Gecənin qaranlığında, əlində beşaçılan keşik çəkən tacir birdən həyətdən səs eşidir. O, dönüb həyətə baxanda gözünə bir qaraltı görünür. Tacir qaraltını tutur güllə-barana. Güllə səsinə Aşıq Abbas çölə çıxır. Tacir Aşıq Abbasa deyir ki, ayını öldürmüşəm. Onlar gecənin qaranlığında ayının yıxıldığı yerə yaxınlaşmırlar.

**(ardı gələn sayımızda)**

***Nemət BƏXTİYAR***
***AJB-nin üzvü,***
***Laçın rayonu***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASIYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ